# Bayramımızı yüksək əhval-ruhiyyə ilə qeyd edirik

Ölkə başçısı cənab İlham Əliyevin apardığı sosialyönümlü siyasətin ən bariz nümunələrindən biri də məhz səhiyyə sahəsində atılan iri addımlardır. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə bu sahədə çox əhəmiyyətli dövlət proqramları, qanun və qərarlar qəbul edilmişdir. Gəncə şəhər 2 saylı Birləşmiş Uşaq Xəstəxanasının çoxsaylı kollektivi də peşə bayramını yüksək əhval-ruhiyyə ilə qeyd edir. Baş həkim Hafiz Abdullayevlə xəstələri yoxlayan anda görüşdük. O, palatadakı xəstələrlə hər səhər fərdi görüşür, səhhətləri ilə maraqlanır və həkimlərə tövsiyələrini verir. Bu bayramda Hafiz həkimdən xəstəxananın fəaliyyəti haqqında məlumat verməyini xahiş etdik. O, ilk öncə bütün tibb işçilərini peşə bayramı münasibətilə təbrik edərək onlara daim diqqət və qayğı göstərən ölkə başçısına dərin minnətdarlığını ifadə etdi. Dedi ki, Birləşmiş Uşaq Xəstəxanasında 288 nəfər tibb işçisi xidmət edir ki, onların 47 nəfəri ali təhsilli təcrübəli həkim, 150 nəfəri tibb işçisi, qalanları isə kiçik tibb işçiləridir. Onlar öz üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirdikləri üçün xəstələr tərəfindən ümid ünvanına çevrilmişlər.



**Zabit XƏLİLOV,**
**"Respublika".**